# Leytenant hay verdi



Tanınmış jurnalist Yaqut Bahadurqızının qələmindən çıxan hər bir yazı, hər bir kitab həmişə rəğbətlə qarşılanır, maraqla oxunur. Mən uzun illərdir ki, bunun şahidiyəm. Onun yaradıcı qələm məhsullarından daha biri - "Hay ver mənə, cənab leytenant" kitabı yenicə nəşr olunmuşdur.

Yaqut Bahadurqızının "Çaşıoğlu" nəşriyyatı tərəfindən bu günlərdə çap edilmiş həmin kitabı 2016-cı ilin aprelində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, ölümündən sonra "Azərbaycan Bayrağı" Ordeninə layiq görülmüş Əbu Bəkr Vüqar oğlu İsmayılovun əziz xatirəsinə ithaf olunmuşdur.





Kitabın annotasiyasında deyilir: "Hay ver mənə, cənab leytenat" kitabı işğalçı Ermənistanın hərbi birləşmələrinin 2016-cı il aprelin 2-də ölkəmizə qarşı növbəti təxribatının qarşısının alınmasında qəhrəmanlıq göstərərək şəhid olmuş Mi-24 hərbi helikopterinin ekipaj üzvü baş leytenant Əbu Bəkr İsmayılovun qısa, eyni zamanda şərəfli həyatından, şəxsi keyfiyyətlərindən bəhs edir. Eləcə də, onun doğmaları, yaxınları, dostları, müəllimləri, iş və döyüş yoldaşlarının söylədikləri maraqlı xatirələr, həmçinin kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə onun haqqında yazılanlar da kitabda öz əksini tapmışdır. Müəllif bunlarla kifayətlənməmiş, təkcə Əbu Bəkr İsmayılov haqqında deyil, eyni zamanda Mi-24 döyüş vertalyotunun digər heyət üzvləri - mayor Vəlizadə Urfan Üzeyir oğlunun, mayor Musazadə Təbriz Tariyel oğlunun, eləcə də, Kürdəmirin digər yetirməsi şəhid Tural Gürşad oğlu Qurbanovun döyüşlərdə qəhrəmancasına hünər göstərmələrindən bəhs edən faktları kitabına daxil etmişdir.

Bütün bu maraqlı fakt və hadisələrin qısa müddət ərzində toplanaraq maraqlı, məzmunlu, əhatəli bir kitaba çevrilməsi Yaqut Bahadurqızının təkcə peşəkar, yaradıcı bir jurnalist deyil, həm də onun fədakar, cəfakeş bir tədqiqatçı olduğunu göstərdi.

Kitaba ön sözü ehtiyyatda olan polkovnik - leytenant Qabil Nəsibov yazmışdır. Kitab ulu öndərimiz Heydər Əliyevin şəhidlər barədə dediyi bu sözlərlə başlayır: "Vətənin, ölkənin müdafiəsi uğrunda şücaət, qəhrəmanlıq nümunələri göstərmiş insanlar qiymətləndirilir və unudulmur. Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir. Onların xatirəsi bizim üçün əzizdir, onlar bizim qəlbimizdən çıxmaz, unudulmaz".

Bunlarla yanaşı, Azərbaycan Respublikasının Müdafiə naziri Zakir Həsənovun şəhidlərin dəfn mərasimindəki çıxışı, eləcə də, Milli Məclisin deputatı, akademik Rafael Hüseynovun şəhidlərin dəfn mərasimində söylədiyi fikirlər, şəhid Əbu Bəkr İsmayılova həsr olunan şeirlər, Əbu Bəkirin döyüş və zabit yoldaşlarının onun haqqında söylədikləri bir çox xatirələr, şəhidin həyatının müxtəlif anlarını əks etdirən foto şəkillər də kitabda geniş yer almışdır.

Yaqut Bahadurqızının qısa müddət ərzində yazıb ərsəyə gətirdiyi bu kitab canlarını vətən və xalq naminə qurban vermiş şəhidlərimizin adlarını, xatirələrini əbədiləşdirməklə yanaşı, onları gələcək nəsillərə tanıtmaq, gənclərə vətənpətvərlik ruhu aşılamaq baxımından çox mühüm töhfədir.

Kitabın ön sözündə deyildiyi kimi, müəllif şəhid zabitin ata-anasının, həyat yoldaşının və digər qohumlarının xatirələrini öncə kövrək notlarla başlasa da, sonda hər kəsin fikrini "Vətən sağ olsun!" çağırışına kökləyə bilmiş, qələbəyə inam, düşmənə qarşı ümumi nifrət hissi yarada bilmişdir. Şəhidin komandirləri və zabit dostlarının xatirələri oxucuya "Biz varıq, bitməmişik, olacağıq, qalib gələcəyik" kimi qəti fikirlər aşılamaqla yanaşı, Lələtəpə yüksəkliyində olduğu kimi, Azərbaycan bayrağının tezliklə hərbiçilərimiz tərəfindən Xankəndidə, Şuşada, Laçında, Kəlbəcərdə, Füzulidə, Ağdamda, Cəbrayılda, Qubadlıda, Zəngilanda və işğal olunmuş digər şəhər və kəndlərimizdə ucaldılacağına əminlik yaradır. Ölməzlik zirvəsində qərar tutan şəhidlərin həyat yollarını əks etdirən xatirələri oxuduqca, müəllifin canından keçməyə hər an hazır olan Azərbaycan oğullarının ümumiləşdirilmiş obrazını ustalıqla yaratdığı diqqəti cəlb edir.

Ön sözdə həmçinin qeyd edilir ki, müəllif kitabda şəhidliyin adi ölüm olmadığı, vətən, torpaq, digər böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək olduğunu, verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyi naminə həsr etməyin nə qədər vacibliyini konkret faktlar əsasında oxucuya çatdırır.

Aprel döyüşlərinin il dönümü ərəfəsində çapdan çıxmış kitabın təqdimat mərasimi də yadda qalan oldu. "Hay ver mənə, cənab leytenant" kitabına olan dərin maraq hissi Kürdəmir rayon ictimaiyyətini həmin kitabın təqdimetmə mərasiminə toplamışdı. Rayonun Heydər Əliyev Mərkəzində keçirilən bu tədbirdə idarə, müəssisə və təşkilatların rəhbərləri, el ağsaqqalları, müharibə və əmək veteranları, məktəblilər, əsgər və zabitlər, şəhid valideynləri iştirak edirdilər.

Kitabın təqdimetmə mərasimi məşhur "Hay ver mənə, cənab leytenant" mahnısının sədaları ilə başlandı.

Milli Məclisin deputatı, akademik Rafael Hüseynov mərasimi giriş sözü ilə açaraq ötən ilin aprel döyüşlərində mərdliklə, qəhrəmanlıqla həlak olmuş şəhidlərin, o cümlədən, Əbu Bəkr İsmayılovun və Tural Qurbanovun ruhuna vətənə layiqli, igid və qəhrəman övladlar bəxş etmiş şəhid valideynlərinə dərin hörmət və ehtiramını bildirdi. Eyni zamanda, aprel döyüşlərində əldə etdiyimiz parlaq qələbənin tarixi əhəmiyyətindən və ibrət dərslərindən danışdı, bu yüksək döyüş ruhunun, vətənpərvərlik hisslərinin daim geniş təbliğ olunması zərurətini bir daha vurğuladı. Qeyd etdi ki, cəsur vətən övladlarının şəxsində göstərilən belə hünərlərin, qəhrəmanlığın orta məktəb dərsliklərinə daxil edilməsi çox vacibdir. Rafael Hüseynov, həmçinin şəhid adlarının əbədiləşdirilməsi onların haqqında mütəmadi olaraq kitablar yazılmasının, filmlər çəkilməsini mənəvi abidələr kimi dəyərləndirdi, o cümlədən, Yaqut Bahadurqızının yazıb ərsəyə gətirdiyi, nəfis tərtibatlı, məzmunlu və əhatəli "Hay ver mənə, cənab leytenant" kitabının əhəmiyyətini diqqətə çatdıraraq, müəllifə minnətdarlığını bildirdi.

Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov öz çıxışında qeyd etmişdir ki, Dövlətimizin başçısı İlham Əliyevin böyük səylə apardığı uğurlu daxili və xarici siyasət sayəsində ordumuz sürətlə inkişaf edərək dünyanın ən güclü ordularından birinə çevrilmişdi. Odur ki, ordumuz təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq ötən ilin aprel döyüşlərində böyük hünər və cəsarət göstərərək minlərlə hektar ərazimizi düşmən işğalından azad etmişdir. Bu döyüşlərdə Kürdəmir rayonunun yetirmələri Əbu Bəkr İsmayılov və Tural Qurbanov da qəhrəmanlıqla şəhid olmuşlar.

Mərasimdə Sor-sor kənd orta məkəbinin direktoru Zeynal Səfərov, kitabın rəyçisi, ehtiyatda olan polkovnik-leytenant Qabil Nəsibov, Əbu Bəkirin hərbi xidmət yoldaşı və yaxın dostu baş leytenant Bəhmən Heybətov, şəhid Əbu Bəkirin anası Rəna İsmayılova, şəhid Turalın atası Gürşad Qurbanov çıxış etdilər. Belə bir fikir və inam ifadə olundu ki, güclü ordusu, Vətən uğrunda hər an canından keçməyə hazır olan igid övladları olan xalqın, ölkənin torpağı heç vaxt düşmən tapdağı altında qala bilməz. Mərasimdə çıxış edənlər şəhidlərin xatirəsinə belə məzmunlu və təsirli kitab yazıb çap etdirdiyinə görə Yaqut Bahadurqızına dərin minnətdarlıqlarını bildirdilər.

Tədbirin gedişində məktəblilər məşhur Koroğlu uvertürasının sədaları altında şəhid Əbu Bəkr İsmayılovun şeirlərini, həmçinin "Hay ver mənə, cənab leytenant" kitabından parçalar oxudular.

Tədbirin sonunda "Hay ver mənə, cənab leytenant" kitabının müəllifi çıxış edərək kitabın yazılması zərurətindən, burada təsvir olunmuş fakt və hadisələri doğuran məqamlardan danışdı, kitaba göstərilən bu böyük maraq və diqqətə görə təşəkkürünü bildirdi.

**Tofiq Abdullayev**